# GƏNCƏ: İNKİŞAF VƏ TƏRƏQQİ YENİ ÜFÜQLƏRƏ YOL AÇIR





**Gəncə Şəhər İcra Hakimiyyətində "Gəncə şəhərinin 2019-cu ilin sosial-iqtisadi inkişafının yekunları və 2020-ci ildə qarşıda duran vəzifələr"ə həsr olunmuş geniş hesabat yığıncağı keçirilmişdir. İclasda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Vəfadar Bağırov, idarə-müəssisə və təşkilat rəhbərləri, şəhər ictimaiyyətinin nümayəndələri, ziyalılar iştirak ediblər.**

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov iştirakçıları salamlayaraq bildirib ki, ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Tarixə qovuşmuş 2019-cu il sosial və iqtisadi vəzifələrin icra edilməsi, nəzərdə tutulmuş proqramların reallaşması, ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsi, beynəlxalq nüfuzunun artması baxımından Azərbaycan üçün uğurlu dövr olmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyevin ulu öndər Heydər Əliyev dühasından qaynaqlanan, elmi əsaslara və liberal iqtisadiyyat prinsiplərinə söykənən insan amilini əsas götürən çevik siyasəti nəticəsində ölkəmiz keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuş, mürəkkəb beynəlxalq iqtisadi mühitdə baş verən böhrana rəğmən iqtisadi artımın davamlılığı təmin edilmişdir.

Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyev əhatəli çıxış edərək bildirib ki, 2019-cu ildə şəhərdə Ümumi Daxili Məhsul buraxılışının 62,9 faizi iqtisadiyyatın istehsal, 37,1 faizi isə xidmət sahəsinin payına düşüb. Şəhərdə sahibkarlıq üçün yaradılan münbit şərait nəticəsində özəl müəssisələr tərəfindən istehsal olunan məhsulun həcmi ümumi sənaye məhsulunun 79,6 faizini təşkil edib. Hesabat dövründə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında DSMF-nin Gəncə şəhər Pensiyaçıların Ərazi Sosial Xidmət Mərkəzi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. Gəncə Dövlət Dram Teatrının yeni 500 yerlik binasının və İdman Sarayının tikintisi sürətlə davam etdirilir. Səməd Tomuyev həmçinin qeyd edib ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar bir gündə 650 min ədəd ağacın əkilməsi təşəbbüsü çərçivəsində Gəncədə 10 mindən artıq ağac əkilib. Çıxışın sonunda Səməd Tomuyev onu da vurğulayıb ki, vətəndaşların müraciətlərinə vaxtında və keyfiyyətlə baxılması və bu sahədə sənədlərlə işin təşkilinin səmərəliliyinin yüksəldilməsi istiqamətində bundan sonra da müvafiq tədbirlər görüləcək.

Şura iclasında çıxış edən Gəncə Maliyyə İdarəsinin rəisi Rəşid Yusifov bildirib ki, hesabat dövründə qeyd olunan sahədə qarşıya qoyulan vəzifələr uğurla həyata keçirilib. Dövlət büdcəsindən dotasiya almayan Gəncə əvvəlki illərdə olduğu kimi, hesabat dövründə də xərclərini öz gəlirləri hesabına ödəyib.

"NEON" firmasının baş direktoru Arif Həsənov çıxışında dövlət başçısının "Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır" strateji xəttinə uyğun biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdığını bildirib. O qeyd edib ki, 2019-cu il ərzində müasir texnologiyalara əsaslanan bir sıra müəssisələrdə yeni istehsal sahələri yaradılıb. Bazarın tələbini nəzərə almaqla yeni növ məhsul istehsalına başlanılıb.

"Gəncə Sukanal" TSC-nin direktoru Şöhrəddin Verdiyev qeyd edib ki, hesabat dövründə şəhər əhalisinin içməli suya olan tələbatının ödənilməsinin yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib. Hesabat dövründə 415 km içməli su şəbəkəsi və magistral xətt inşa edilib, 271 çoxmənzilli yaşayış binasının daxili şəbəkəsi yenidən qurulub, 13 min 240 ədəd su sayğacı quraşdırılıb.

"Gəncə Regional Qaz İstismar" İdarəsinin Baş mühəndisi Azər Bayramov da çıxışında hesabat dövrü ərzində görülən və qarşıda duran vəzifələr haqqında toplantı iştirakçılarına məlumat verib. Bildirilib ki, son illərdə Gəncə Qaz İstismarı Sahəsi və "Azəriqaz" İstehsalat Birliyi tərəfindən şəhər əhalisinin və iqtisadiyyatın ayrı-ayrı sahələrinin təbii qaza olan tələbatının ödənilməsi məqsədilə yeni daşıyıcı xətlər çəkilib. Təmirə ehtiyacı olan müxtəlif diametrli boruların, habelə qaz tənzimləyici şkafların əsaslı və cari təmiri, yenilərinin quraşdırılması istiqamətində müəyyən işlər görülüb. Tam əminliklə demək olar ki, ölkə Prezidenti cənab İlham Əliyevin göstərdiyi böyük diqqət və qayğı nəticəsində ölkədə, o cümlədən Gəncədə aparılan abadlıq-quruculuq işlərinin həcmi genişləndiriləcək.

Bütün məruzələri dinləyən Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Vəfadar Bağırov yekun nitq ilə çıxış edib. O, Azərbaycanın sosial-iqtisadi inkişafından, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və rifah halının yaxşılaşdırılması istiqamətində atılan addımlardan, ölkə rəhbərinin imzaladığı sərəncam və fərmanlardan, qəbul olunan Dövlət proqramlarından söz açıb. O bildirib ki, bu gün Azərbaycanın bir çox bölgəsində, o cümlədən Gəncədə sənaye zonaları yaradılır. Sənaye zonaların yaradılması həm ölkə iqtisadiyyatının inkişafına, həm də əhalinin məşğulluğunun təmin edilməsinə yönəlib. Gəncədə aparılan genişmiqyaslı abadlıq-quruculuq işlərini müsbət qiymətləndirən Vəfadar Bağırov şəhər ictimaiyyətinə müraciət edərək, bu işlərin davamlı olması üçün hər bir şəhər sakininin dəstəyinə ehtiyac duyulduğunu vurğulayıb.

Hesabat yığıncağının sonunda iştirakçılar adından ölkə Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olunub.

**Zabit XƏLİLOV,**
**"Respublika".**